**AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ**

**P O L İ S   A K A D E M İ Y A S I**

**KAFEDRA: "CİNAYƏT HÜQUQU"**

**FƏNN: "CƏZA-İCRA HÜQUQU"**

# M Ü H A Z İ R Ə

**MÖVZU № 3.** "**Cəzanın icrası və məhkumlara islah edilmə vasitələri**"

Vaxt - 4 saat
Mühazirə - 2 saat
Seminar - 2 saat

**TƏRTİB ETDİ:**


"Cinayət hüququ" kafedrasının baş müəllimi,
polis polkovniki, h.ü.f.d. **Rəsul Rüstəmov**

"Cinayət hüququ" kafedrasının müəllimi,
polis polkovnik-leytenantı **Şamxal Kərimov**


Mühazirə kafedranın iclasında müzakirə edilib və bəyənilib.

Protokol №

**B A K I - 2 0 1 7**

# P L A N

**GİRİŞ:**

1. Cəzanın icrasının və çəkilməsinin anlayışı və hüquqi tənzimi.
2. Məhkumlara islah edilmə vasitələrinin tətbiqininin anlayışı və hüquqi tənzimi.
3. Cəzanın icrasının və məhkumlara islah edilmə vasitələrinin tətbiqinin differensiasiyası və fərdiləşdirilməsi.

**NƏTİCƏ:**

## Ə D Ə B İ Y Y A T:


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2017.

1. Azərbaycan Respublikasının CİM. Bakı, 2017
2. Azərbaycan Respublikasının CM. Bakı, 2017
3. Cəza-icra hüququ. Şərhlər və sxemlər. Dərs vəsaiti. B., 2004.
4. Cəza-icra hüququ. Dərs vəsaiti. Bakı, 2007
5. F.Y.Səməndərov. Cinayət hüququ. Ümumi hissə. Dərslik. Bakı,2017
6. M.H.Hümbətov. Cəza və onun icrası., “Hüquq ədəbiyyatı”. Bakı,1999.
7. Rəhimov.İ.M.Cinayət və cəzanın fəlsəfəsi. Bakı, 2014
8. Rəhimov.İ.M.Cinayətkarlar və cəza. Bakı, 2015
9. M.H.Hümbətov.Məhkumun məlumat kitabı. “Hüquq ədəbiyyatı”. Bakı,2003
10. İ.B.Ağayev Azərbaycan Respublikasının cəza-icra hüququ. Ümumi hissə. Bakı, 2007
11. İ.B.Ağayev Azərbaycan Respublikasının cəza-icra hüququ. Xüsusi hissə. Bakı, 2011
12. M.H.Hümbətov, N.Mustafayev. Azərbaycan Respublikasında məhkumların hüquqi vəziyyəti. Bakı, 2010
13. Учебник. Уголовно-исполнительное право. Под ред. В.И.Селиверстова. М., 2000.
14. Рагимов И.М. “Теоретические и практические проблемы исправительно-трудового воздействия”. Б., 1981.

# G İ R İ Ş

Cəzanın icrası törədilmiş əmələ görə məhkəmə tərəfindən təqsirkar şəxsə tətbiq edilən, ictimai təhlükəli əməlin nəticəsi olan cəzanın, yəni hüquq məhdudiyyətlərinin həyata keçirilməsi, məhkumların islah edilməsi və onların faydalı bir üzv kimi cəmiyyətə qaytarılması prosesini bildirir. Bu baxımdan qeyd edilən proses elə təşkil olunmalıdır ki, istər cəzanın, istərsə də cəza-icra qanunvericiliyinin məqsədlərinə nail olunsun. Cəzanın icrası bu və ya digər növ cəzaları icra edən müəssisə və orqanlara aid edildiyi üçün məhz bu müəssisə və orqanlar cəzanın icrası prosesinin düzgün təşkil edilməsinə, onun tərbiyə prosesi ilə birləşdirilməsinə çalışmalıdırlar.

Digər tərəfdən, məhkumların şəxsiyyəti, onların cəmiyyət üçün təhlükəlilik dərəcəsi bir-birindən fərqləndiyi üçün cəza-tərbiyə prosesi də həm ümumi, həm də fərdi xüsusiyyətlərə malik olmalıdır.

## Sual I. Cəzanın icrasının və çəkilməsinin anlayışı və hüquqi tənzimi

Azərbaycan Respublikasının Konstitusiyasının 129-cu maddəsinə əsasən, məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü bütün müəssisələr, idarələr, təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar üçün məcburidir və icra edilməlidir. Hökm icraya yönəldikdən sonra buna səlahiyyətli olan dövlət orqanları, yəni müəssisələrin, idarələrin və təşkilatların müdiriyyəti məhkəmə tərəfindən təyin edilmiş cəzaya münasibətdə onu yerinə yetirməyə borcludur.

Dövlət məcburiyyətinin xüsusi forması kimi cəzanın mahiyyətini və məzmununu tənbeh təşkil edir. Buna görə də **cəzanın icrası dedikdə, cəza-icra hüququ normaları ilə tənzimlənmiş tənbehin tətbiqi qaydası - məhkumun hüquq və azadlıqlarının məhdudlaşdırılması kompleksi başa düşülür.**

Qüvvədə olan cəzaların icrası qanunvericiliyi tənbehin həyata keçirilməsi prosesini göstərmək üçün cəzanın «**icrası**» məfhumu ilə yanaşı cəzanın «**çəkilməsi**» məfhumunu da işlədir. Məsələn, CİM-in 1-ci maddəsində qeyd edilir ki, «**Məhkəmə tərəfindən təyin edilən cəzaların icrası və çəkilməsi qaydalarını və şərtlərini müəyyən edən cəzaların icrası qanunvericiliyi bu Məcəllədən, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir**». Qeyd edilən məfhumlar məhkumlara tənbeh təsirinin həyata keçirilməsinin vahid prosesini əks etdirsə də, onlar cəza-icra hüquq münasibətlərinin müxtəlif subyektlərinə və iştirakçılarına yönəlmişdir.

Cəzanın «icrası» məfhumu öz fəaliyyətində cəzanın konkret növlərində nəzərdə tutulmuş hüquq məhdudiyyətlərinin bütün kompleksini həyata keçirməyə, məhkəmə hökmündə müəyyən edilmiş müddət ərzində məhkumların hüquqlarının həyata keçirilməsini və onlar tərəfindən öz

üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsini təmin etməyə borclu olan müvafiq müəssisə və orqanlara yönəlmişdir. Yəni, cəzanın icrası bu müəssisə və orqanların cəza ilə əlaqədar fəaliyyətini nəzərdə tutur. Cəzanın "çəkilməsi" məfhumu isə, cəzaların icrası qanunvericiliyi ilə müəyyən edilmiş göstərişlərə müvafiq məhkəmə hökmü əsasında öz üzərlərinə qoyulmuş vəzifələri yerinə yetirməyə, hüquq norması ilə qadağan edilmiş hərəkətlərdən çəkinməyə, öz hüquqlarını həyata keçirməyə borclu olan məhkumlara aiddir.

Tənbeh təsiri kompleks xarakter daşıyır və konkret növ cəzanın çəkilməsi rejimi ilə müəyyən edilmiş bütün hüquq məhdudiyyətlərinin məcmusunun məhkumlara tətbiq edilməsi yolu ilə həyata keçirilir. Bu hüquq məhdudiyyətlərinin tətbiqi əsas məqsəd deyil. Başqa sözlə, onların tətbiqinin məqsədi qanunvericiliyin bu sahəsinin qarşısında duran vəzifələrə müvafiq olaraq, cəzanın lazımi qaydada icrasını təmin etməkdir. Göstərilən hüquq məhdudiyyətləri məhkumların islah edilməsi və onlar tərəfindən yeni cinayətlərin törədilməsinin xəbərdar edilməsi məqsədilə onların şəxsiyyətinə təsirin psixoloji-pedaqoji vasitəsi qismində tətbiq edilir.

Tənbehin tətbiq edilməsi bütün növ cəzaların icrasına xasdır. Lakin onun həcmi konkret cəza növündən asılıdır. Vətəndaşların əsas subyektiv hüquqların birindən – azadlıqdan məhrum edilməsi, onun üçün daha əhəmiyyətli sosial dəyərlərin: hərəkət azadlığının, ünsiyyət azadlığının, sosial əlaqələrin, çoxsaylı mühüm subyektiv hüquqlara sərəncam vermək imkanının məhdudlaşdırılmasına və s. səbəb olur. Buna görə də cəmiyyətdən təcrid etməyə hüquq məhdudiyyətlərinin məcmusu kimi baxılmalıdır. Çünki müəyyən hüquqlardan məhrum etmə və ya müəyyən hüquqların həcminin daralması təcridetmə ilə şərtlənir. İslah işlərinin icrası zamanı tənbeh təsiri məhkumların əmək hüquqlarının müəyyən həcmdə məhdudlaşdırılmasına və onların əmək haqqından 5%-dən 20 %-dək tutulmalarda ifadə olunur. Şəxs müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etməyə məhkum olunduqda, tənbeh təsiri məhkumun vəzifədən azad eidlməsində və onun müəyyən vəzifə tutma və ya müəyyən növ peşə fəaliyyəti

ilə (misal üçün, ovçülüq, sürücülük, həkimlik, pedaqoji və s.) məşğul olma hüququndan məhrum edilməsində öz əksini tapır. Tənbeh tədbirlərinin həyata keçirilməsi zamanı məhkumların hüquqlarının məhdudlaşdırılması konkret cəza növünün icrası rejimi ilə müəyyən olunur.

Cəzanın mahiyyəti və məzmunu ifadə olunan cəzanın icrası rejimi öz istiqamətinə görə çox funksiyalıdır. O, məhkumlara tənbeh təsirini təmin edir, məhkumların islah edilməsinin əsas vasitələrindən biri kimi çıxış edir (CİM-in 8-ci maddəsi) və eyni zamanda digər tərbiyə təsiri vasitələrinin müvəffəqiyyətlə tətbiqi üçün hüquqi zəmin yaradır. BMT-nin 1966-cı il tarixli «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»ında qeyd edildiyi kimi, **“Həbs cəzası sistemində məhbuslar üçün əsas onların islahı və yenidən tərbiyəsi olan rejim nəzərdə tutulur. Yetkinliyə çatmamış qanun pozucuları yetkinliyə çatmışlardan təcrid edilir və onlar üçün yaşlarına və hüquqi statuslarına uyğun rejim müəyyən olunur”.**[1]

Müəyyən cəza növünə münasibətdə rejim, cəzanın spesifikliyi ilə müəyyən edilən konkret məzmun əldə edir. Rejim qaydaları daha tam və hərtərəfli olaraq, azadlıqdan məhrum etmə yerlərində realizə olunur. Rejim istər işdən kənar vaxtda, istərsə də əmək fəaliyyəti prosesində məhkumların bütün həyat tərzini tənzimləyir. Rejim məhkumların müdiriyyətin nəzarəti altında olan həyat fəaliyyətinin bütün sahələrini əhatə edir.

Azərbaycan Respublikası CİM-in 74.2-ci maddəsinə əsasən cəzaçəkmə müəssisələrində müdiriyyət tərəfindən Daxili İntizam Qaydalarında nəzərdə tutulmuş və məhkumlar üçün yerinə yetirilməsi məcburi olan gündəlik qayda müəyyən edilir. Bura həm də cəzaçəkmə müəssisələrində və məhkumların işlədikləri digər müəssisələrin istehsalat obyektlərində hüquq qaydasının təmin edilməsi üzrə müvafiq tələblər daxildir. Onun normaları azadlıqdan məhrum etmə yerlərinə gəlmiş digər vətəndaşlara (din xadimlərinə, məhkumların qohumlarına, ictimai təşkilatların nümayəndələrinə, istehsalat obyektlərinin işçi heyətinə və s.) şamil edilir. Bu şəxslər cəzaçəkmə müəssisə-

---

[1] **Международная зашита прав и свобод человека. Сборник документов. М., 1998, с.37.**

sində və onun istehsalat obyektlərində müəyyən olunmuş məhkumlarla qarşılıqlı davranış qaydalarına əməl etməlidir. Buna görə rejim qaydaları bu şəxslərə yönəlmişdir. Rejim azadlıqdan məhrum etmə yerlərində onların davranışını tənzimləyir.

Rejim qaydaları yalnız cəzaçəkmə müəssisələrinin ərazisində və onun istehsalat obyektlərində deyil, həm də rejim tələblərinin müəyyən edildiyi digər ərazilərdə də tətbiq olunur. Bundan başqa, azadlıqdan məhrum edilmiş və cəzaçəkmə müəssisələrindən kənarda yaşamağa icazə verilmiş qadınlar üçün də rejim qaydaları müəyyən edilmişdir (Azərbaycan Respublikası CİM-in 88-ci maddəsi).

Beləliklə, azadlıqdan məhrum etmə cəzasını çəkərkən, rejim, məhkumların bütün həyat tərzini, cəzanın bu növünün icra edilməsi üzrə cəzaçəkmə müəssisələrinin müdiriyyətinin fəaliyyətinin bütün sahələrini tənzimləyir.

Digər müddətli cəza növləri çəkilərkən, rejimin məzmununu təşkil edən əsas elementlərin məcmusu məhkumlara tətbiq edilən hüquq məhdudiyyətlərinin həcmini xeyli dərəcədə daraldır, onların davranışının spesifik qaydalarının tənzimini qısaldır. Lakin cəza icra edilərkən, bütün hallarda məhkumların davranışına nəzarət edilir. Bu da ki, rejimin əsas elementlərindən biridir (CİM-in 74-cü maddəsi).

Məhkumun cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan cəzaların icrası zamanı qanunverici **«rejim»** məfhumunu tətbiq etməsə də, onun istifadə edilməsi qanuna uyğundur. Çünki qanun cəzanın çəkilməsi qaydası və şərtləri kimi məfhumlara əsaslanır. Bununla yanaşı rejimin özünün anlayışı cəzanın icrasının və çəkilməsinin qaydası və şərtləri kimi müəyyən edilir. Tənbeh bildirən cəzanın çəkilməsi rejimi eyni vaxtda özündə xarakterinə görə məcburiyyət tədbirlərinin təzahürü olmayan bir sıra elementlərə malikdir. Bunlara birgəyaşayış qaydaları kimi baxmaq olar. Belə ki, cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarında məhkumlardan aşağıdakılara riayət etmək tələb edilir:

- cəzaçəkmə müəssisəsinin əmlakına qayğı ilə yanaşmaq;

- yaşayış və xidməti binaları təmiz saxlamaq;
- şəxsi gigiyena qaydalarına əməl etmək və s.

Sadalanan normalar adi birgəyaşayış şəraitinin yaradılmasına yönəlmişdir və heç bir hüquq məhdudiyyətlərinə malik deyil. Buna görə də onlar tənbeh təsirinin elementi hesab edilə bilməz.

Qeyd edilənləri ümumiləşdirsək, belə nəticəyə gələ bilərik ki, rejimin tərkibinə yalnız hüquq məhdudiyyətləri deyil, həm də birgəyaşayış qaydaları daxil edilməlidir. Birgəyaşayış qaydaları isə tənbeh məzmununa malik deyil. Dar mənada rejimin məzmunu belədir. Geniş mənada cəzanın rejimi isə, üzərinə cəzanın icra edilməsi vəzifəsi qoyulmuş müəssisə və orqanların müdiriyyətinin fəaliyyətini nizama salan, cəzanın realizə olunmasını təmin edən maddi və prosessual normaların bütün məcmusunu, habelə məhkumlar tərəfindən cinayət cəzalarının çəkilməsi şərtlərinin və qaydalarının məcmusunu əhatə edir.

Rejimin qeyd edilən anlayışına əsaslanaraq, onun funksiyalarını da açıqlamaq olar.

Cəza-icra hüququ nəzəriyyəsinə görə bu funksiyalar sisteminə tənbeh, tərbiyə, təminetmə və sosial nəzarət funksiyaları daxildir. Qeyd edildiyi kimi, **tənbeh funksiyası** cəzaçəkmə prosesində məhkumlara hüquq məhdudiyyətləri sistemi müəyyən edilməsi yolu ilə realizə olunur. Rejimin **tərbiyə funksiyası** tənbehin həyata keçirilməsi yolu ilə realizə olunur. Rejim qaydaları məhkumları müəyyən edilmiş cəzaçəkmə qaydalarına əməl etməyə məcbur edir, onlara intizamlı olmağı öyrədir. Lakin onları həddən artıq qiymətləndirmək də olmaz. Məhkumlara tətbiq edilən hüquq məhdudiyyətləri, tənbeh səmərəli tərbiyə prosesinin təşkili üçün şərait yaradır.

**Rejimin təminedici** funksiyasından istifadə edilməsi məhkumu əməyə cəlb etməyə, tərbiyəvi tədbirlərin, ümumi təsilin və peşə təhsilinin aparılmasına imkan verən hüquqi vasitələrin yaradılması yolu ilə realizə olunur. Rejim qaydaları məhkumların əməyə cəlb edilməsi və onların əməyinin təşkili qaydalarını, tərbiyəvi tədbirlərin aparılması qaydalarını, azadlıqdan məhrum

etmə yerlərində ümumi təhsil məktəblərinin, peşə məktəblərinin, kursların işinin təşkili qaydalarını müəyyən edir. Bütün bu qaydalar müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul edilmiş normativ aktlarda təsbit olunmuşdur.

Rejimin köməyi ilə **sosial nəzarət funksiyası** realizə olunur. Sosial nəzarət funksiyası rejimin əsas funksiyalarından biri olub, məhkumların davranışını nizama salmaq, onların davranışına nəzarəti təşkil etmək və pozitiv (həvəsləndirmə tədbirləri) və ya neqativ (tənbeh tədbirləri) sanksiyaların tətbiq edilməsi əsasında onların davranışını qiymətləndirmək yolu ilə həyata keçirilir. Məhkuma təyin olunmuş cəza növü nə qədər ciddi olarsa, rejimin də sosial-nəzarət funksiyası bir o qədər intensiv realizə olunar. Bu funksiya həyata keçirilərkən, məhkumların hüquqazidd davranışı xəbərdar edilir.

Məhkumlara tənbeh təsiri, onlar üçün müəyyən edilmiş hüquq məhdudiyyətləri sistemi rejimin realizəsi ilə əlaqədar bütün məsələlərin hüquq normaları ilə qəti nizamlanması zərurətini şərtləndirir. Hüquq normaları eyni zamanda cəzanı icra edən müəssisə və orqanların, vəzifəli şəxslərin, məhkumlara münasibətdə ictimai təşkilatların səlahiyyətini, məhkumlar barəsində onların qərarlar qəbul etməsi prosedurasını ətraflı nizama salır, məhkumlarla qarşılıqlı əlaqə qaydalarını, cəzaçəkmə müəssisələrinin və onların digər obyektlərinin sərəncamında olan vətəndaşların davranışını müəyyən edir. Bütün bunların hamısı cinayət cəzasının icrası sahəsində qanunçuluğun təmin edilməsinə yönəldilmişdir.

## Sual 2. Məhkumlara islah edilmə vasitələrinin tətbiqinin anlayışı və hüquqi tənzimi

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 42-ci maddəsində nəzərdə tutulmuş cəzaların icrası zamanı məhkumlara islah etmə vasitələri tətbiq edilir. Bu tədbirlər həmçinin islah təsiri tədbirləri adlanır. İslah etmə vasitələri qeyd edilən cəzaların icrasının və islah etmənin məqsədlərinə nail olmanın, habelə məhkumlar tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınmasının zəruri şərtidir. Qüvvədə olan cəzaların icrası qanunvericiliyində (CİM-in 8-ci maddəsində) məhkumların islah edilməsinin anlayışı verilmiş və islah edilmə vasitələrinin siyahısı göstərilmişdir. Göstərilən islah edilmə vasitələrinin tətbiqi prosesi nəzəriyyədə islah təsiri prosesi adlanır.

**Məhkumların islah edilməsi** – mürəkkəb sosial-pedaqoji və sosial-hüquqi kateqoriyadır. Yeni Cəzaların İcrası Məcəlləsinin qəbulunadək bu kateqoriya penitensiar pedaqogika tərəfindən öyrənilirdi. Hazırda isə islah edilmənin məzmunu CİM-in 8.1-ci maddəsində aşağıdakı kimi müəyyən edilmişdir: «**Məhkumların islah edilməsi onlarda qanuna itaətin həvəsləndirilməsi, insana, cəmiyyətə, əməyə, birgəyaşayış qayda və ənənələrinə hörmət və ehtiramın formalaşdırılmasıdır**».

Məhkumların islah edilməsinin əsas vasitələri aşağıdakılardır:

- cəzanın icrasının və çəkilməsinin müəyyən edilmiş qaydası (rejim);
- tərbiyə işi;
- ictimai faydalı əmək;
- ümumi təhsil;
- peşə təhsili və peşə hazırlığı;
- ictimai təsir.

**Cəzanın icrası və çəkilməsi rejimi** cəzanın növündən asılı olaraq müəyyən edilir. Rejim hüquqi kateqoriya olmaqla, məhkuma müxtəlif məhdudiyyətlər yaratmaqla cəzalandırma vəzifəsini yerinə yetirsə də, həmçinin tərbiyə

vəzifəsini də həyata keçirir. Rejim məhkumlara intizamli olmağı, qanunlara riayət etməyi öyrədir və buunla da digər islah edilmə vasitələrinin tətbiq edilməsi üçün zəruri şərait yaradır. Eyni zamanda rejim, qanunçuluğun və ictimai qaydanın, cəzanı icra edən müəssisə və orqanların işçi heyətinin, məhkumların, habelə cəzanın icrası ilə əlaqədar olaraq cəzanın icrası yerində olan vəzifəli şəxslərin və digər vətəndaşların təhlükəsizliyinin təmin olunması üçün müvafiq şərait yaradılmasını da nəzərdə tutur.

**Tərbiyə işi,** psixoloji-pedaqoji kateqoriya olmaqla, özündə məhkumların şəxsi xüsusiyyətlərini, onların sosial-mənəvi pozğunluq dərəcəsini, törədilmiş cinayətin xarakteri və ağırlığı, yaş, təhsil və cəza müddətindəki davranışını nəzərə almaqla məhkumlara təsir göstərilməsinin üsul və formalarının məcmusunu müəyyənləşdirir.

Azərbaycan Respublikası CİM-in 8.2.2-ci maddəsinə əsasən tərbiyə işi məhkumların islah edilməsinin əsas vasitələrindən biridir. Bu islah edilmə vasitəsi məhkumların islah edilməsi və onlar tərəfindən törədilə biləcək yeni cinayətlərin qarşısının alınması məqsədinə xidmət edir. Qeyd edilən maddəyə əsasən, məhkumlarla tərbiyə işi onların ictimai faydalı əməklə məşğul olmasına, əməyə vicdanlı münasibətlərinə və cəmiyyətdə qəbul edilmiş davranış normalarına riayət etmələrinə, onların təhsil və mədəniyyət səviyyəsinin yüksəldilməsinin formalaşdırılmasına yönəldilir.

Azadlıqdan məhrum etmə şəraitində tərbiyəvi təsir prosesi məhkumlara obyektiv və subyektiv təsir amillərinin məcmusunu əks etdirir. Obyektiv amillərə məhkumların islah edilməsi üçün cəza-icra sistemi müəssisələrində yaradılmalı olan şəraiti, həmçinin də maddi-texniki bazanı, subyektiv amillərə isə, işçi heyətinin məqsədyönlü fəaliyyətini, onların peşə, psixoloji-pedaqoji ustalığını aid etmək olar.

Cəzaçəkmə müəssisələrində tərbiyə prosesi azdlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin cəza çəkdiyi spesifik şəraitdə həyata keçirilir. Buna görə də məhkumlarla tərbiyə işinin əsas istiqamətləri, formaları və daha mühüm məsələləri Azərbaycan Respublikasının cəzaların

icrası qanunvericiliyi ilə (CİM-in 101 və 102-ci maddələri ilə) və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin normativ-hüquqi aktları ilə tənzimlənir.

Tərbiyəvi təsir prosesinin mühüm cəhətlərinin hüquqi tənzimi ilk növbədə pedaqoji məqsədlər güdür. Bundan baiqa, cəza-icra və digər hüquq sahələrinin normalarının ciddi yerinə yetirilməsi tərbiyəvi əhəmiyyətə malikdir. Çünki bu, məhkumları davranış qaydalarını yerinə yetirməyə öyrədir, onlarda qanuna hörmət hissi yaradır. Nəhayət, cəzaçəkmə müəssisələrində tərbiyəvi təsir prosesinin tənzimlənməsi ona məqsədyönlülük və mütəşəkkillik verir.

Azadlıqdan məhrum edilmiş şəxslərlə tərbiyə işinin təşkili cəzaların icrasını həyata keçirən müəssisə və orqanlar üzərinə qoyulmuşdur. Bu vəzifənin yerinə yetirilməsinə görə ilk növbədə, cəzaçəkmə müəssisələrinin tərbiyəvi təsir prosesini həyata keçirən işçiləri (cəzaçəkmə müəssisələrinin rəisləri, psixoloqlar və bilavasitə məhkumlarla işləyən digər əməkdaşlar) məsuliyyət daşıyırlar.

Cəzaçəkmə müəssisələrində funksional vəzifəsi məhkumlar arasında tərbiyəvi tədbirlər aparmaq olan əsas vəzifəli şəxs dəstə rəisidir. Dəstə sistemi azadlıqdan məhrum etmə növündə cinayət cəzasını icra edən müəssisələrdə tərbiyə prosesinin əsas təşkilati həlqəsi olduğu üçün, dəstə çərçivəsində məhkumların qarşılıqlı əlaqələri sistemi formalaşdırılır, şəxsiyyətin hərtərəfli öyrənilməsi təmin edilir və məqsədyönlü tərbiyəvi təsir təşkil edilir.

CİM-in 102-ci maddəsi cəzaçəkmə müəssisələrində məhkumlarla tərbiyə işinin əsas formalarını müəyyən edir. Məhkumlarla tərbiyə işinin formaları qismində hüquqi, əxlaqi, əmək və fiziki tərbiyə formaları fərqləndirilir. Əgər, qanuna və cəzaçəkmə müəssisələrində cəzaçəkmə rejiminin tələblərinə zidd deyilsə, tərbiyə işinin digər formaları da tətbiq edilə bilər.

**Hüquqi tərbiyə** - azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərlə aparılan tərbiyə işinin əsas formasıdır. Çünki, məhz hüquqi şüurun qüsurları, qanunlara hörmətsizlik, onların tələbləri haqqında təhrif olunmuş təsəvvürlər cəza çəkən şəxsi cinayət törətməyə sövq etmişdir. Hüquqi tərbiyənin məqsədi məhkumlara qanuna tabe davranış formalaşdırmaqdır. Bu

işin əsas formalarına aiddir: hüquqi mövzuda mühazirə və məşğələlərin, fərdi izahedici söhbətlərin keçirilməsi, hüquqi məsləhətlər və s.

**Əxlaqi tərbiyə** vicdanlılığın, saflığın, məsuliyyət, şəxsi borc və ləyaqət hisslərinin formalaşdırılmasına, insanın mənəvi səviyyəsinin yüksəldilməsinə yönəlmişdir. Bu işdə məhkumların dini etiqad azadlığı hüququnun həyata keçirilməsi də mühüm rol oynayır. Son illərdə azadlıqdan məhrum etmə yerlərində dini ayinlərin keçirilməsinin təşkilati və hüquqi təminatı təcrübəsi təşəkkül tapmışdır. CİM-in 13-cü maddəsinə əsasən cəzaçəkmə müəssisəsinin müdiriyyəti dini ayinlərin keçirilməsi üçün zəruri şərait yaradır. Digər tərəfdən, azadlıqdan məhrum etmə yerlərində dini ayinlərin keçirilməsi könüllüdür və elə təşkil edilməlidir ki, digər məhkumların hüquqlarını və cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarının tələblərini pozmasın.

**Əmək tərbiyəsi** ənənəvi olaraq, məhkumlara islah təsirinin əsas istiqamətlərindən biri kimi nəzərdən keçirilir. Məhkumlarla aparılan əmək tərbiyəsi işi cəzaçəkmə müəssisələrində, cəza çəkməkdən azad edildikdən sonra əmək vasitəsilə ictimai faydalı fəaliyyətdə iştirakına imkan verən tərbiyəvi tədbir və vasitələrin sistemini bildirir. Məhkumların əmək tərbiyəsinin hüquqi əsasları CİM-in 95-ci maddəsində təsbit edilmişdir.

Məhkumların **fiziki tərbiyəsi** cəmiyyətdən təcrid etmə şəraitində olan şəxslərin fiziki sağlamlığını inkişaf etdirmək və möhkəmləndirmək, həmçinin onların normal əxlaqi və psixi vəziyyətini qoruyub saxlamaq məqsədilə həyata keçirilir. Bu işin məzmununa idman yarışlarının, oyunların, idman bölmələrində məşğələlərin və s. təşkili daxildir. Məhkumlar üçün gündəlik qaydalarda fiziki təmrinlərin həyata keçirilməsi nəzərdə tutulur.

Tərbiyə işinə differensial yanaşma tələbi yalnız məhkumlarla davranış sahəsində beynəlxalq aktlardan irəli gəlmir, həm də cəzanın icrası təcrübəsi ilə şərtlənir.

**İctimai faydalı əmək,** məhkumları islah etmə vasitəsi kimi iqtisadi, tərbiyəvi, ictimai və sağlamlığın qorunması kimi vəzifələri yerinə yetirir. Məhkumların ictimai faydalı əməklə məşğul olması qanunvericiliklə vacib

sayılır. Buna görə də məhkumlar onların iş qabiliyyəti, sağlamlığı, o cümlədən imkan daxilində malik olduqları ixtisası nəzərə alınmaqla işə cəlb olunurlar. Lakin, CİM-in tələbinə görə məhkumların əmək fəaliyyəti cəzanı icra edən müəssisə və orqanların əsas vəzifəsinə, yəni məhkumların islah edilməsinə mane olmamalıdır.

Məhkumların **ümumi orta təhsili** onların yalnız müəyyən biliklər əldə etməsinə yönəlməmişdir. Təhsil həmçinin məhkumun mənəvi və estetik tərbiyəsini, onun mədəni səviyyəsinin yüksəldilməsini nəzərdə tutur.

**Peşə təhsili və peşə hazırlığı** islah etmə prosesində məhkumlara yeni ixtisas almaq və ya mövcud ixtisası yüksəltmək imkanı verir.

**İctimai təsir,** yəni ictimaiyyətin islah prosesində iştirakı cəzanı icra edən müəssisə və orqanların məhkumların islah edilməsi məqsədilə həyata keçirdikləri tədbirlərin səmərəsinin daha da artırılmasına köməklik edir.

Əlbəttə, islah edilmə vasitələri bütün məhkumlara tam şəkildə və eyni həcmdə tətbiq olunmur. CİM-in 8.3-cü maddəsi müəyyən etmişdir ki, məhkumlara islah etmə vasitələri təyin edilmiş cəzanın növü, törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsi və xarakteri, məhkumun şəxsiyyəti və davranışı nəzərə alınmaqla tətbiq edilir.

İslah təsiri cəzaların icrası zamanı həyata keçirilən tərbiyə prosesinin xüsusi növüdür. İslah təsiri prosesi də digər tərbiyə prosesləri kimi eyni prinsipial əsaslara söykənir. Bununla yanaşı islah təsiri prosesi digər şəxslər arasında aparılan tərbiyə prosesindən fərqli, spesifik xüsusiyyətlərə də malikdir. Bu xüsusiyyətlər aşağıdakılardır:

**Birincisi,** burada işlənilən tərbiyə prosesinə xas olan inandırma və məcburetmə metodlarının əlaqələndirilməsi xüsusi formada və nisbətdə çıxış edir.

Bildiyimiz kimi cəzanın icrası dövlət məcburiyyət tədbiridir. Burada məcburiyyət xüsusi formada - cəza formasında təzahür edir. Cəzanı ifadə edən məcburetmə tədbiri məhkumların yalnız davranış həddini deyil, həm də onlarla tərbiyə işinin məlum hüdudlarını, başqa sözlə, islah təsirinin həyata

keçirilməsini müəyyən edir. Nəzəriyyədə nəzərdə tutulan və tərbiyə təcrübəsində işlənib hazırlanan inandırma və məcburetmə tədbirləri islah təsirinin həyata keçirilməsi prosesində cəzanın xarakterinə, rejimin məzmununa müvafiq olmalıdır. Eyni zamanda tərbiyə prosesinin həyata keçirilməsi cəzanın konkret elementlərinin realizə olunmasına təsir edir. Məcburetmə tədbiri kimi cəza həm məhkumu məcbur edir, həm də tərbiyələndirir. İslah təsiri tədbirləri məhkumlarda müsbət keyfiyyətlər yaratmaq üçün nəzərdə tutulur və buna görə də tətbiq olunur.

**İkincisi**, islah təsiri islah etmə prosesində məhkumların tərbiyə edilməsini nəzərdə tutur. Başqa sözlə, islah təsiri cinayət cəzasının məqsədlərinə nail olmağa kömək edir. Məhz, belə bir tərbiyə təsiri (islah təsiri) nəticəsində keçmiş cinayətkar cəmiyyətin faydalı bir üzvünə çevrilir.

**Üçüncüsü**, islah təsiri prosesi cinayət hüququ və cəza-icra hüququ normalarının göstərişlərinə müvafiq olaraq həyata keçirilir.

Bütün qeyd edilənlərdən aydın görünür ki, cəzaların icrası prosesi və bu cəzalara məhkum edilmişlərə islah təsiri tədbirlərinin tətbiqi prosesi ümumi məqamlara malikdir. Bir tərəfdən, hüquq normaları ilə tənzimlənən cəzanın icrası və çəkilməsi tərbiyəvi tədbirlərin aparılmasını, pedaqogikanın tətbiq edilməsini nəzərdə tutur (həm də müəyyən pedaqoji müddəalar cəza-icra hüququ normalarında öz əksini tapır), digər tərəfdən, islah təsiri cəzanı tamamlayan tərbiyəvi pedaqoji prosesin bir növüdür.

Cəzanın icrası və çəkilməsi hökmən məhkumlara islah təsiri tədbirlərinin tətbiq edilməsini nəzərdə tutur. Lakin cəza ilə islah təsirini eyniləşdirmək də olmaz. Cəza törədilən ictimai-təhlükəli əmələ - cinayətə görə təyin edilir və tənbehlə yanaşı həm də tərbiyə imkanına malik olur. İslah təsiri isə cəzaya kömək edən tərbiyəvi, pedaqoji prosesdir.

İslah təsiri adi tərbiyədən özünün obyektinə görə fərqlənir. İslah təsirinin obyekti qismində cəzaya məhkum edilmiş şəxslər çıxış edir. Bu onunla izah olunur ki, həmin şəxslər cəmiyyət üçün daha da təhlükəlidir. Azərbaycan Respublikasının CİM-in 6-cı maddəsinə əsasən, cəzaların icrasının və

məhkumlara cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqinin əsaslarını məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, yaxud məhkəmənin bu hökmü dəyişən qərarları, habelə amnistiya və ya əfvetmə aktları təşkil edir. Buna görə də məhkumların islah edilməsi vəzifəsi buna səlahiyyəti olan cəzaçəkmə müəssisələri və dövlət orqanları üzərinə qoyulmuşdur. Məhkumlar isə aparılan tərbiyəvi tədbirlərdə məcburi iştirak etməlidirlər. Nəhayət, islah təsiri cəza-icra hüququnun normaları ilə müəyyən edilmiş çərçivədə realizə olunur. Cəzanın icrası və islah təsiri tədbirlərinin birləşdirilməsi vahid cəza-tərbiyə prosesini əmələ gətirir.

Cəzaların icrası qanunvericiliyində cəzanın çəkilməsi ilə islah təsiri bir-birindən fərqləndirilir. Bu fərq onunla izah olunur ki, cəza öz məzmununa görə tənbehdir, tərbiyə prosesi isə əksinə, tənbehi istisna edir. O, öz mahiyyətinə görə əzab mənbəyi ola bilməz, məhkumları hər hansı dəyərdən məhrum etməməlidir. İslah təsiri ümumi xəbərdarlıq məqsədi güdməlidir. Cəzanın icrası cəza-icra hüququnun prinsiplərinə, islah təsiri isə peqaoji prinsiplərə əsaslanır. Məhkumların islah edilməsi islah təsirinin nəticəsi olmalıdır.

Cəzların icrası qanunvericiliyində məhkumların əməyi ənənəvi olaraq, onların islah edilməsinin əsas vasitələrinə aid edilmişdir. Lakin, əvvəllər nəzəriyyədə və təcrübədə onun roluna həddən artıq diqqət yetirilmişdi. O, məhkumların islah edilməsinin əsası hesab edilirdi. Cəzaçəkmə müəssisələri isə mahiyyətcə, məhkumların əməyini istismar edən sənaye müəssisəsi kimi çıxış edirdi, onun əsas vəzifəsi istehsalat planını ödəməyə, gəlir götürməyə yönəlmişdi.

Yeni cəzaların icrası qanunvericiliyi əməyin hakim mövqeyinə son qomuş, onu islah edilmə vasitələrindən yalnız biri hesab edir. Məhz buna görə də məhkumun cəzanın icrası zamanı əməyinin məzmunu dəyişmiş, yalnız islah etməyə yönəlmişdir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi məhkumların əməyini onların islah edilməsinin zəruri vasitəsi hesab etməklə, onu digər islah

edilmə vasitələrinin tətbiqi üçün vacib hesab edir. Belə ki, Azərbaycan Respublikası CİM-in 101.1-ci maddəsinə əsasən **«məhkumlarla tərbiyə işi onların ictimai faydalı əməklə məşğul olmasına, əməyə vicdanlı münasibətə və cəmiyyətdə qəbul edilmiş davranış normalarına riayət edilməsinin, təhsil və mədəniyyət səviyyəsinin artırılmasının formalaşdırılmasına və möhkəmləndirilməsinə yönəldilir».**

Artıq qeyd etdiyimiz kimi cəzanın icrası cəza-icra hüququ normalarında hərtərəfli tənzimlənmişdir. Təbii ki, cəzanın icrasına uyğun olan islah edilmə vasitələrinin tətbiqi də hüquqla nizama salınmalıdır. Çünki islah edilmə vasitələrinin tətbiqi rejim qaydaları ilə müəyyən hüdudlarda həyata keçirilir. Onlar bu və ya digər tərbiyə formalarının, metodlarının və üsullarının tətbiqinin mümkünlüyünü müəyyən edir. Misal üçün, məhkumların görüşləri, telefon danışıqları onların tərbiyələndirilməsi vasitəsi sayılır və bunlara qanunla yol verilir. Lakin onların təqdim edilməsi qaydası qəti şəkildə tənzimlənir. Misal üçün, CİM-in 113.2.3-cü maddəsində qeyd edilir ki, ümumi rejimli cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar il ərzində qısa müddətli 48 görüş və uzun müddətli 4 görüş almaq hüququna malikdirlər. Buna görə də cəza-icra hüququ normaları islah edilmə vasitələrinin tətbiqinə fəal surətdə təsir göstərir. Lakin tərbiyə prosesi – yaradıcı prosesdir. Bu proses məhkumlara pedaqoji təsir formalarının, metodlarını və üsullarınnın seçilməsində tərbiyəçiyə sərbəstlik və azadlıq verilməsini nəzərdə tutur. Buna görə də islah edilmə vasitələrinin hər birinin tətbiqinin hüquqi tənzimi müxtəlifdir.

## Sual 3. Cəzanın icrasının və məhkumlara islah edilmə vasitələrinin tətbiqinin differensiasiyası və fərdiləşdirilməsi

Cəzanın icrasının və məhkumlara islah edilmə vasitələrinin tətbiqinin differensiasiyası və fərdiləşdirilməsi cəzanın məqsədlərinə nail olmaq üçün zəruri və ilkin şərait yaradır.

Cəzanın icrasının və islah edilmə vasitələrinin tətbiqi prosesinin **differensiasiyası** dedikdə, törətdikləri cinayətlərin xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən, keçmiş cinayətkar fəaliyyətlərindən asılı olaraq, müxtəlif kateqoriyadan olan məhkumlara müxtəlif həcmdə tənbeh təsirinin, hüquq məhdudiyyətlərinin tətbiqi başa düşülür. Bu şəxslərlə tərbiyə işi isə onların şəxsiyyətinin tipoloji xüsusiyyətləri, yaş hədləri, cinsləri və digər psixoloji-pedaqoji xüsusiyyətləri nəzərə alınmaqla aparılmalıdır. Cinayət hüququ və cəza-icra hüququ normaları bünün üçün zəruri şərait yaradır. Bu, ilk növbədə azadlıqdan məhrum etməyə məhkum edilmişlərə aiddir. Bu məhkumlar nisbətən yekcins kateqoriyalara bölünür, onlar tərəfindən cəzanın çəkilməsi isə müxtəlif növ cəzaçəkmə müəssisələrində təşkil edilir. Bu isə onlara müxtəlif həcmdə hüquq məhdudiyyətinin tətbiqinə imkan verir. Beləliklə, cəzanın icrasının differensiasiyası məhkumların müxtəlif kateqoriyalara bölünməsi, yəni təsnifatıdır. Cəzanın icrasının və məhkumlara islah edilmə vasitələrinin tətbiqinin vahid cəza-tərbiyə prosesi olmasına baxmayaraq, tənbehin differensiasiyası ictimai-faydalı əmək, tərbiyə işi, ümumi və peşə təhsili kimi islah edilmə vasitələrinin ayrı-ayrılıqda tətbiqindən fərqlənir.

Cəzanın icrasının differensiasiyası cəzaçəkmə müəssisələrinin mövcud növləri ilə məhdudlaşır. O, həm də yalnız məhkumların cəmiyyətdən təcrid edilməsi dərəcəsindən, məhkumların subyektiv hüquqlarının məhdudlaşdırılması həcmindən deyil, həm də çəkilməli olan cəzanın müddətindən,

cəzanın çəkilmə yerindən asılıdır. Təsadüfi deyil ki, bununla əlaqədar olaraq, BMT-nin «Hər hansı formada tutulmağa və ya həbs edilməyə məruz qalan bütün şəxslərin müdafiəsinin prinsipləri məcmusu»nun 20-ci prinsipində göstərilir ki, **«həbsdə olan şəxsin arzusu ilə əlaqədar əgər bu mümkündürsə, o, özünün adi yaşayış yerindən çox uzaq olmayan yerdə saxlanmalıdır».**[1]

Əgər cəzanın icrasının differensiasiyası başlıca olaraq, müəyyən növ cəzaçəkmə müəssisələri çərçivəsi ilə məhdudlaşırsa, islah edilmə vasitələrinin tətbiqinin differensiasiyası konkret cəzaçəkmə müəssisəsi hüdudunda həyata keçirilir və məhkumların müxtəlif kateqoriyalarının yaş, cins və digər əlamətlər nöqteyi-nəzərdən tipoloji xüsusiyyətlərinin nəzərə alınmasına, habelə sosial-mənəvi pozğunluğun dərəcəsinə və ya əksinə, islah olunma dərəcəsinə əsaslanır.

Sosisal-mənəvi pozğunluğun dərəcəsi üzrə məhkumlar cəzanın icrası rejimini pozanlara, rejimi qərəzli pozanlara, islah yoluna qədəm qoymaq istəməyən şəxslərə bölünürlər. İslah edilmə dərəcəsinə görə onlar islah yoluna qədəm qoymuşlar, islah yoluna qəti qədəm qoymuşlar və özünün islah olunduğunu sübut etmiş şəxslər kimi müxtəlif kateqoriyalara bölünürlər.

Müxtəlif kateqoriyadan olan məhkumlara münasibətdə islah edilmə vasitələrinin tətbiqinin differensiasiyası həm təcrid etmədən, həm də təcrid etmə yolu ilə cəzaçəkmə müəssisələrinin növü hüdudunda həyata keçirilir. Misal üçün, rejimin qərəzli pozulmasına görə məhkumlar kamera tipli otaqlara keçirilə bilərlər. Burada onlar həmin cəzaçəkmə müəssisəsində cəza çəkən digər məhkumlardan ayrıca saxlanılırlar. Qeyd etmək lazımdır ki, belə differensiasiya yalnız azadlıqdan məhrum etmənin icrası zamanı həyata keçirilir.

Cəzanın icrasının və islah edilmə vasitələrinin tətbiqinin fərdiləşdirilməsi differensiasiyanın məntiqi davamıdır. Bunun əsas müddəaları CİM-in 8.3-cü maddəsində öz əksini tapmışdır. Orada qeyd edilir ki, **«Məhkumlara islah**

[1] İnsan hüquqları və polis. Dərs vəsaiti. B., 2002. s.232.

**edilmə vasitələri cəzanın növü, törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsi və xarakteri, məhkumun şəxsiyyəti və davranışı nəzərə alınmaqla tətbiq edilir».**

Cəzanın icrasının fərdiləşdirilməsi cəzanın təyin edilməsinin fərdiləşdirilməsinə əsaslanır. O, bir növ cəzaçəkmə müəssisəsi hüdudunda konkret məhkumlara tənbeh həcminin dəyişdirilməsi yolu ilə habelə bir növ cəzaçəkmə müəssisəsindən digərinə keçirilmə yolu ilə realizə olunur.

# N Ə T İ C Ə

Beləliklə, cəzanın icrası prosesi cəza-icra hüququ normaları ilə nizama salınan tənbeh tədbirlərinin tətbiqi qaydasını, başqa sözlə, məhkumların hüquq və azadlıqlarının məhdudlaşdırılması kompleksini müəyyənləşdirir. Qeyd edilən bu proses səlahiyyətli dövlət orqanları, yəni cəzanı icra edən müəssisə və orqanlar tərəfindən təşkil edilir və həyata keçirilir.

Cəzanın icrası prosesinin tərkib hissəsi məhkumlara islah edilmə vasitələrinin tətbiq edilməsidir ki, bura cəzanın icrası və çəkilməsi qaydası (rejim), ictimai faydalı əmək, tərbiyə işi, ümumi və peşə təhsili, habelə peşə hazırlığı və ictimai təsir daxildir. Məhz bu islah edilmə vasitələrinin tətbiqinin düzgün təşkil edilməsi nəticəsində cəzanın icrasının qarşısında duran vəzifələrə, ilk növbədə isə məhkumların islah edilməsinə nail olunur.